ŞÜŞƏ KÜRƏ

Bərpa olunan enerji
haqqında komiks kitabı

Layihə Haqqında

Bu komiks kitabı gənc nəsli enerji səmərəliliyi və bərpa olunan enerji kimi məsələlər, o cümlədən enerji israfının ətraf mühitə və təbiətə vurduğu zərər barədə maarifləndirmək məqsədilə tərtib olunub.

Kitab uşaqlar üçün əyləncə və həyəcan mənbəyi, həmçinin bərpa olunan enerji mənbələri barədə ideya və tövsiyələrlə dolu faydalı vəsaitdir.

Bərpa olunan enerji haqqında komiks kitabı

MEŞƏNIN YAXINLIĞINDA YERLƏŞƏN KIÇIK ŞƏHƏRDƏ HƏYAT SAKIT VƏ AŞAĞI TEMPLƏ DAVAM EDIR.
İLK BAXIŞDAN SAKINLƏRIN ENERJIYƏ QƏNAƏT ETMƏYƏ VƏ PLANETIN SAĞALMASINA KÖMƏK ETMƏYƏ ÇALIŞDIQLARI GÖRÜNÜR.

Hekayə Haqqında

Dörd dost və onların sevimli ev heyvanı olan dağsiçanının hekayəsi oxucunu yeganə düşmənin laqeydlik və inamsızlıq olduğu dünyaya aparır. Baş qəhrəmanlarımız əngəlləri aşmaqla yanaşı, sadə maarifləndirmə işi və mehribanlıqla dünyanı yaxşılaşdırmağa nail olurlar.

BUNA BAXMAYARAQ, GÖRÜNÜR, BƏZI PROBLEMLƏRI HƏLL ETMƏK DAHA ÇƏTINDIR.

LIYA SABAH KEÇİRİLƏCƏK ELMİ SƏRGİYƏ HAZIRLAŞIR.

ONUN ƏN SON IXTIRASI ŞÜŞƏ KÜRƏDIR. BU KÜRƏ HAVA PROQNOZU TƏTBIQI ILƏ ƏLAQƏLƏNDIRILDIKDƏ ÇÖLDƏKI HAVA ŞƏRAITINI GÖSTƏRIR.

YAXŞI DA, LUNA! GÖRMÜRSƏN KI, VACIB IŞIM VAR???

ÖZÜ DƏ, DAĞSIÇANLARI PALTAR GEYINMIRLƏR.

LIYA, BAX, SUPERQƏHRƏMAN DAĞSIÇANI ÜÇÜN SUPERQƏHRƏMAN SVITERI!

LUNANIN YENI HOBBISI VAR. O, DAĞSIÇANLARI ÜÇÜN SVITERLƏR TOXUYUR. BU, OZZININ XOŞUNA GƏLMIR. ELƏ LIYANIN DA.

YAXŞI, YAXŞI, GEDIRIK... ÖZÜ DƏ, GEYINIRLƏR!

MAKS VƏ DENI MƏKTƏBDƏ ENERJI SƏMƏRƏLILIYINƏ HƏSR OLUNMUŞ KLUB YARADIBLAR

ONLARIN MƏŞHUR "INSTA-DRUM" HESABI VAR. OZZI ORADA ƏSAS ULDUZDUR.

"INSTA-DRUM" ISTIFADƏÇISI 1: BU DAĞSIÇANI MƏNIM TOTEM HEYVANIMDIR!

"INSTA-DRUM" ISTIFADƏÇISI 2: UY DA, OZZI! MÖHTƏŞƏMSƏN!!

"INSTA-DRUM" ISTIFADƏÇISI 3: BUNU BÖYÜK BACIMA GÖSTƏRƏCƏYƏM. O HƏMIŞƏ IŞIQLARI SÖNDÜRMƏYI UNUDUR.

sərbəst tok-şou

PROFESSOR SLEYT, INDIYƏ QƏDƏR ÖYRƏNDIKLƏRINIZ BARƏDƏ BIZƏ DANIŞA BILƏRSINIZMI?

DÜZÜ, INSANLARIN DAVRANIŞLARINI DƏYIŞDIKLƏRINI GÖRÜRƏM, ANCAQ DÜŞÜNÜRƏM KI, BU, KIFAYƏT DEYIL.

BIZ DAHA BÖYÜK ADDIMLAR ATMALIYIQ.

PROFESSOR SLEYT DÜNYANI GƏZƏRƏK INSANLARI ENERJI SƏMƏRƏLILIYI BARƏDƏ MAARIFLƏNDIRIR.

XYZ

ELMI SƏRGIYƏ CƏMI BIR NEÇƏ SAAT QALIB VƏ HƏR KEÇƏN DƏQIQƏ LIYANIN NARAHATLIĞI DAHA DA ARTIR.



ŞÜŞƏ KÜRƏ, NƏHAYƏT, ÇÖLDƏKI HAVA ILƏ MÜKƏMMƏL ƏLAQƏ QURDU.

GƏL, ONUN ÜSTÜNÜ YORĞANLA ÖRTƏK. SABAHA QƏDƏR DINCƏLSƏ, YAXŞIDIR.



ELMI SƏRGI IŞTIRAKÇILARI ÖZ IXTIRALARINI NÜMAYIŞ ETDIRIRLƏR.









OZZI!! BURADA NƏ IŞIN VAR?!

HII!!!

BEEP! BEEP!

TARIXƏ BAXIN!!!

03.10 2059 10:05

LIYA, BU NƏDIR? DÜZƏLTDIYIN PROQRAMIN GÖSTƏRDIYI.. BU, GƏLƏCƏYİMİZDİR?!

BILMIRƏM... BILMIRƏM... GETMƏLIYƏM! ÜZR ISTƏYIRƏM! BAĞIŞLAYIN!

LAMPA

@Hər Kəs

Tez sərdağa gəlin!!!

Aa

BAŞA DÜŞƏ BILIRƏM. YƏQIN OZZI HANSISA DÜYMƏYƏ BASIB... KÜRƏ INDI GƏLƏCƏKDƏKI HAVA ŞƏRAITINI GÖSTƏRIR!

ONU DA DEYIM KI, GƏLƏCƏK, HEÇ YAXŞI GÖRÜNMÜR.

SƏN NƏ ETMISƏN, BALACA SEHRBAZ?

BƏLKƏ DƏ NECƏSƏ ENERJI SƏRFIYYATIMIZLA ƏLAQƏLIDIR?

SLEYTDƏN SORUŞMAQ LAZIMDIR! O, NƏ ETMƏK LAZIM OLDUĞUNU BILƏCƏK.

HƏ, MƏNIM AĞLIMA HEÇ GƏLMƏDI (KINAYƏ ILƏ)! BÜTÜN GÜNÜ ONUNLA DANIŞMAĞA ÇALIŞMIŞAM.

TELEFONA CAVAB VERMIR!

GETDIK!

LABORATORIYAYA GETMƏLIYIK, HƏMIŞƏ ORADA OLUR...

BU YER MƏNI QORXUDUR...

SLEYT!!! PROFESSOR! SALAM! K IMSƏ VAR?!

BUNLAR NƏDIR? SLEYT HARADADIR?

BAXIN! GÜNƏŞ PANELI. DEYƏSƏN O, YENI IXTIRA ÜZƏRINDƏ IŞLƏYIR!


YAXŞI, BƏS BU NƏDIR?

HMM, GÖRDÜKLƏRIMI SIZ DƏ GÖRÜRÜSÜNZ?
PRO... PROFESSOR?...
21P


HOLA, AMIGOS! MƏNI AXTARIRSINIZ?
SƏN KIMSƏN? BIZ SLEYTI AXTARIRIQ.
DÜZÜ, PRINSIPCƏ, SLEYT... MƏNƏM, ANCAQ YAXŞI OLAR KI, MƏNI TƏXƏLLÜSÜMLƏ ÇAĞIRASINIZ: QADCET TEYLZ.
KORNELIUS MƏNIM QARDAŞIMDIR.
BƏS BURADA NƏ EDIRSƏN? SLEYT HARADADIR?
O, INDI XARICDƏDIR. ONA GÖRƏ, ONUN LABORATORIYASINI MƏN IŞLƏDIRƏM. ÖZÜM MÜHƏNDISƏM:
BƏRPA OLUNAN ENERJI MƏNBƏLƏRINI ARAŞDIRIB BU CÜR CIHAZLAR DÜZƏLDIRƏM.
OZZY!



ONDA SIZ BIZƏ BURADA NƏYIN BAŞ VERDIYINI DEYƏ BILƏRSINIZ! BU, MƏNIM ELMI SƏRGI LAYIHƏM IDI, ANCAQ...

BUNU SƏN DÜZƏLTMISƏN? ƏVVƏLA, ONU DEYIM KI, BU, MÖHTƏŞƏMDIR! SƏNIN NEÇƏ YAŞIN VAR? EH, INDIKI UŞAQLAR...

İKINCISI, MƏNƏ DETALLAR LAZIMDIR. BU NECƏ BAŞ VERDI? 2059? BUNUN DÜZ IŞLƏDIYINDƏN ƏMINSƏN?

ƏSAS QƏHRƏMAN BURADADIR!

DAĞSIÇANIMIZ ŞÜŞƏ KÜRƏNIN IÇƏRISINƏ GIRDI. YƏQIN NƏYISƏ BASIB, DƏQIQ BILMIRƏM. KÜRƏ CARI HAVA ŞƏRAITINI GÖSTƏRMƏLI IDI,

ANCAQ GƏLƏCƏYI GÖSTƏRƏN MAŞINA ÇEVRILDI! BUNU NECƏ IZAH EDƏRSINIZ?

MƏN HAMIYA BU BARƏDƏ XƏBƏRDARLIQ ETMIŞDIM. ÇOX TEZ OLACAQ, ÇOX HEYF... YAXŞI, YEGANƏ VARIANTIMIZ PLANIMIZI SÜRƏTLƏNDIRMƏKDIR...

HANSI PLAN?

ENERJIYƏ QƏNAƏT ETMƏK KIFAYƏT ETMIR. BIZ HƏMÇININ BƏRPA OLUNAN ENERJIDƏN ISTIFADƏ ETMƏYƏ BAŞLAMALIYIQ. HƏR ŞEYIN BIR LIMITI VAR...

BƏRPA OLUNAN ENERJI SƏRF OLUNDUĞUNDAN DAHA YÜKSƏK SÜRƏTLƏ TƏBII ŞƏKILDƏ BƏRPA OLUNAN TƏBII MƏNBƏLƏRDƏN (GÜNƏŞ, KÜLƏK, SU VƏ S.) ƏLDƏ OLUNAN ENERJIDIR. BU CÜR ENERJININ ISTEHSALI VƏ IKINCI DƏRƏCƏLI ENERJIYƏ (MƏSƏLƏN, ELEKTRIK ENERJISI) ÇEVRILMƏSI ƏTRAF MÜHITIN ÇIRKLƏNMƏSINƏ SƏBƏB OLMUR.

...ELƏ BU ŞÜŞƏ KÜRƏNIN DƏ. KÜRƏ ÖZÜNÜ SIFIRLAYANA QƏDƏR CƏMI BIR HƏFTƏ VAXTIMIZ VAR. ONDAN SONRA NƏYI DƏYIŞDIRDIYIMIZI GÖRƏ BILMƏYƏCƏYIK.

ÜZƏRINDƏ IŞLƏDIYIM HƏR ŞEYI SIZƏ GÖSTƏRƏCƏYƏM. BƏLKƏ, OLA BILSIN KI, BƏXTIMIZ GƏTIRSIN VƏ GƏLƏCƏYI DƏYIŞDIRƏK.

ONDA NƏYI GÖZLƏYIRIK? BAŞLAYAQ!





GÜNƏŞ PANELLƏRI GÜNƏŞ ENERJISINI ELEKTRIK ENERJISINƏ ÇEVIRIR. GÜNƏŞ ŞÜALARININ MIQDARINDAN VƏ PANELIN ÖLÇÜLƏRINDƏN ASILI OLARAQ, ISTEHSAL OLUNAN ELEKTRIK ENERJISINDƏN MOBIL TELEFONDAN BÜTÖV EVƏ QƏDƏR HƏR ŞEYI ELEKTRIKLƏ TƏCHIZ ETMƏK ÜÇÜN ISTIFADƏ OLUNA BILƏR YAXUD BU ENERJI SONRADAN ISTIFADƏ ETMƏK ÜÇÜN BATAREYALARDA SAXLANA BILƏR.

PANELLƏR KIMI GÜNƏŞ KOLLEKTORLARI DA GÜNƏŞ ENERJISINI BAŞQA ENERJI FORMASINA ÇEVIRIR. YEGANƏ FƏRQ BUDUR KI, KOLLEKTORLAR BU ENERJINI ELEKTRIK ENERJISINƏ DEYIL, ISTILIK ENERJISINƏ ÇEVIRIR.

GÜNƏŞ SOBALARI YALNIZ GÜNƏŞ ENERJISINDƏN ISTIFADƏ EDƏRƏK SEVIMLI QƏLYANALTINIZI SOYUTMAQ ÜÇÜN ƏLA YASITƏDIR. BOŞ PIZZA QUTUSU VƏ BIR NEÇƏ FOLQA VƏRƏQI ILƏ SIZ DƏ ÖZ GÜNƏŞ SOBANIZI DÜZƏLDIB ISTI YAY GÜNLƏRINDƏ SMOR, PEÇENYE VƏ YA HƏTTA HOTDOQ HAZIRLAYA BILƏRSINIZ.

WIND POWER STATIONS
forebay
Power house
head
Turbine
KÜLƏK ELEKTRIK STANSIYASI ELEKTRIK ENERJISINI ISTEHSAL ETMƏK ÜÇÜN BIRLIKDƏ YERLƏŞDIRILMIŞ KÜLƏK TURBINLƏRINDƏN IBARƏTDIR.
KIÇIKÖLÇÜLÜ SU ELEKTRIK STANSIYASI YALNIZ AXARSU VƏ YA SU KANALINDAN ISTIFADƏ EDƏRƏK 100 KVT-A QƏDƏR ELEKTRIK ENERJISI ISTEHSAL EDIR. BU SISTEMLƏRIN ISTEHSAL ETDIYI ELEKTRIK ENERJISINDƏN ELEKTRIK ŞƏBƏKƏSINƏ QOŞULMAMIŞ EVLƏRI VƏ YA BÜTÖV ICMALARI ELEKTRIKLƏ TƏCHIZ ETMƏK ÜÇÜN ISTIFADƏ OLUNA BILƏR.
BIZ MEŞƏNI XILAS EDƏCƏYIK! BIZ DƏNIZI XILAS EDƏCƏYIK, ÇÜNKI BIZ ENERJIYƏ QƏNAƏT EDIRIK, BU QƏDƏR SADƏ!


BU HƏFTƏ ÇOX TEZ KEÇDI. BÜTÜN ŞƏHƏR KÖMƏK ƏLINI UZATDI. BUNUNLA BELƏ, GƏLƏCƏK ELƏ DƏ SÜRƏTLƏ YAXŞILAŞMIR.
BAX, TEYLZ! GETDIKCƏ YAŞILLAŞIR. DEYƏSƏN IŞƏ YARAYIR, HƏ?
BIZ DOĞRU YOLDAYIQ, ANCAQ BU, KIFAYƏT ETMƏYƏ BILƏR... DAHA ÇOX INSANA XƏBƏR VERMƏLIYIK!
ŞÜŞƏ KÜRƏ VƏ GƏLƏCƏKDƏ BIZI GÖZLƏYƏN TƏHLÜKƏLƏR BARƏDƏ MƏLUMAT ŞƏHƏRIN VƏ DÜNYANIN HƏR YERINƏ YAYILIR. BÜTÜN INSANLAR ENERJIDƏN ISTIFADƏ VƏRDIŞLƏRINI DƏYIŞMƏYƏ BAŞLAYIRLAR.
2 DAYS
23 : 52
HOURS REMAINING

01:30
HOURS REMAINING
DEMƏK OLAR KI, VAXTIMIZ QALMAYIB!

GÖRÜNÜR, ETDIKLƏRIMIZ KIFAYƏT ETMIR! ÇATIŞMAYAN NƏDIR AXI?!

BÜTÜN ŞƏHƏR ŞÜŞƏ KÜRƏNIN IÇƏRISINDƏKI VƏZIYYƏTI CANLI YAYIMLAYAN BÖYÜK EKRANIN QARŞISINA YIĞILIB.
NƏ BAŞ VERIR? İŞƏ YARAMADI?
ÜMID EDIRƏM, ÇATDIRA BILƏCƏYIK!
01:30
HOURS REMAINING



YAXŞI, BALACA SEHRBAZ, BIR DƏFƏ BUNU ETMISƏN, YENƏ BIZƏ KÖMƏK ET. NƏYIN ÇATIŞMADIĞINI TAP!



UŞAQLAR, BAXIN! DEYƏSƏN, OZZI BIZƏ NƏ ISƏ DEMƏK ISTƏYIR!


BIR DƏQIQƏ, BU BIZIM MƏKTƏB DEYIL? DAMINDAKI NƏDIR?


BU, GÜNƏŞ PANELIDIR! ONLARI ORADA QURAŞDIRMALI IDIK!!! ARTIQ ÇOX GECDIR! ÇATDIRA BILMƏYƏCƏYIK! KIFAYƏT QƏDƏR VAXTIMIZ YOXDUR...




UŞAQLAR, BAXIN!

PROFESSOR, LAYIHƏM... ŞƏHƏRİMİZ DAĞILIB, YƏNİ GƏLƏCƏKDƏ.

OZZI İÇƏRİYƏ GİRİB, AMMA ARTIQ ÇOX GECDİR.

NƏ DEYƏ BİLƏRİK, O, DRAMATİK GİRİŞLƏRİ XOŞLAYIR!

NARAHAT OLMAYIN! BİLİRƏM! BACARDIĞIM QƏDƏR TEZ GƏLDİM. ÜMİD EDİRƏM, GECİKMƏMİŞƏM...

BU, ƏVVƏLCƏDƏN HAZIRLANMIŞ GÜNƏŞ PANELİDİR. MƏKTƏBİNİZ ÜÇÜN FƏRDİ OLARAQ HAZIRLANIB. BÜTÜN ETDİKLƏRİNİZ SAYƏSİNDƏ BU,

FƏLAKƏTİN QARŞISINI ALMAĞA KİFAYƏT EDƏCƏKDİR.

MƏKTƏBİN PƏNCƏRƏLƏRİNƏ BAXIN! GÜNƏŞ PANELİ İŞLƏYİR!

BUNU DA QALDIRAQ SAHİB OLDUĞUNUZ ENERJİYƏ VƏ ÖZ GƏLƏCƏYİNİZ UĞRUNDA MÜBARİZƏ APARMAQ EŞQİNİZƏ!

GƏLƏCƏYƏ!

GƏLƏCƏYƏ!

OZZI! SƏN MƏNİM QƏHRƏMANIMSAN! GÖR QEYD ETMƏYƏ KİM GƏLİB?! ROZI!

ƏNƏNƏVİ ENERJİ MƏNBƏLƏRİNİ GÜNƏŞ, KÜLƏK VƏ YA SU KİMİ TƏMİZ BƏRPA OLUNAN ENERJİ MƏNBƏLƏRİ İLƏ ƏVƏZLƏMƏK ÇİRKLƏNMƏNİN AZALDILMASINDA, PLANETİMİZİN HƏM İNSANLAR, HƏM DƏ HEYVANLAR ÜÇÜN UZUN İLLƏR YAŞIL VƏ DOĞMA EV OLARAQ QALMASININ TƏMİN EDİLMƏSİNDƏ VACİB ADDIMDIR.

Publisher and proprietor:
Council of European Energy Regulators
Cours Saint-Michel 30a, 1040 Brussels, Belgium
Tel.: +32 (0)2 788 73 30
Fax: +32 (0)2 788 73 50
www.ceer.eu
e-mail: brussels@ceer.eu
twitter.com/CEERenergy
https://www.linkedin.com/company/council-of-european- energy-regulators/
https://www.facebook.com/CEERenergy
Created by Windfor's Tbilisi
© Council of European Energy Regulators in the framework of the EU4Energy Programme – "Promoting the Clean Energy Transition in the Eastern Partnership Countries: EU4Energy Phase II"

Co-funded by
the European Union

Bu nəşr Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb.
Nəşrin məzmununa görə yalnız Avropa Enerji Tənzimləyiciləri Şurası məsuliyyət daşıyır və məzmunun Avropa İttifaqının fikirlərini əks etdirməsi mütləq deyil.